Tarix və onun problemləri, №4 2009

**LEYLA VAQIF QIZI**
*BDU- nun "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının dissertantı*

# AVROPA İTTIFAQININ ŞƏRQƏ INTEQRASIYA SIYASƏTINƏ DAIR (XX əsrin 90-cı illəri)

Avropa İttifaqının özülündə duran Avropa Birlikləri (Avropanın Kömür və Polad Birliyi, Atom Enerjisi üzrə Avropa birliyi, Avropa İqtisadi Birliyi) bu qitədə 60-80-cı illərdə gedən inteqrasiya proseslərinin kardinal xarakterindən xəbər verirdi.

Artıq başlanğıc mərhələdə bu proses iki səviyyədə- iqtisadi fəaliyyətin birbaşa subyektləri və dövlətlər səviyyəsində getmişdi. Keçən əsrin 80-ci illərinin ortalarına doğru Avropa inteqrasiyası hər iki səviyyədə təkmilləşmək üçün bütün təşkilati-institutsional şərtlərə sahib idi. Bu öz əksini 1986-cı il vahid Avropa aktında da tapdı: sənəd Avropa inteqrasiyasının yeni fazası oldu. Vahid Avropa Aktının ardınca məhşur Maastrixt sazişləri prosesi başladı.

Əgər 1986-cı il Vahid Avropa Aktı Avropa Birliyi ölkələrinin vahid daxili bazar yaratmaları üçün zəruri hüquqi bazanı yaratmışdırsa, Maastrixt sazişləri iqtisadi valyuta və siyasi ittifaqlar istiqamətində inteqrasiyanın dərinləşməsi üçün təşkilati şərtləri doğurdu. 1992-ci ildə imzalanan Maastrixt müqaviləsi 12 dövlətin iştirakı ilə Avropa İttifaqını yaratdı.

Lakin Maastrixt müqaviləsinə yalnız iqtisadi yönlü hadisə kimi baxmaq doğru olmazdı. Qərbi Avropanın yüksək səviyyədə inteqrasiyaya ehtiyacı təkcə iqtisadi imperativlərə bağlı deyil; Maastrixt prosesində keçən əsrin 90-cı illərin əvvəllərində Şərqi Avropada və Sovet İttifaqında baş verən köklü geosiyasi dəyişiliklərin də rolu az deyil. Belə ki, SSRİ- nin dağılması və bunun ardınca sosialist blokununsürətlə iflası, heç şübhəsiz, qitədəki siyasi sabitliyi qoruyub saxlamaq zərurəti doğurdu. Qitənin şərqində baş verənlər Avropa İttifaqını yeni strategiya işləyib hazırlamaq zərurəti qarşısında qoydu.

Avropa İttifaqı üzvlərini ən çox narahat edən məsələ keçmiş sosialist blokunda milli və etnik qarşıdurmaların kəskinləşməsi idi. Böyük Britaniya, Belçika, İspaniya, Fransa kimi çoxmillətli dövlətlər bu cür qarşıdurmaların hansı problemlərə gətirib çıxaracaqlarını yaxşı bilirdilər və istər SSRİ-də, istərsə də Yuqoslaviyada separatçılıq meyllərinin güclənməsi Qərbi Avropa ölkələrinin özündə daxili siyasi və bunun da ardınca sosial və hətta iqtisadi sabitlik üçün təhlükə ola bilərdi.

Avropa İttifaqı, Şərqi Avropa ölkələri qarşısında öz "tarixi məsuliyyətini" yaxşı dərk edirdi (5, s 69) inteqrasiyanın ən bariz nümunəsi olan Avropa İttifaqı qitədə qeyri-sabitlik meyllərinin qarşısının alınması və Avropada təhlükəsizliyin təmini üçün yeganə çıxış yolunu inteqrasiya proseslərinin bu ölkələrə yayılmasında görürdü. Avropa İttifaqının Şərqə inteqrasiya siyasətində, şübhəsiz, həmin ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi əsas meyar kimi götürülürdü. Bu baxımdan Avropa İttifaqına potensial üzv ola biləcək ölkələr içərisində Macarıstan, Çexoslovakiya və Polşa irəlidə idi.Avropanın Rekonstruksiya və İnkişaf bankının o zamankı prezidenti Jak Attali bununla bağlı yazırdı "Əgər qərb qitənin şərqini öz təşəkkülü prosesinə atmağı bacarsa, o, dünya iqtisadiyyatının "ürəyi" statusuna iddialı ən zəngin və mütərəqqi məkan ola bilər" ( bax 5, s. 68).

Məhz bu perspektivlər ruhunda Avropa İqtisadi Birliyinin üzv dövlətləri 7 fevral 1992-ci il tarixdə Niderlandın Maastrixt şəhərində Avropa İttifaqının (European Union) əsasını qoyan müqaviləni imzaladılar və müqavilə 1 noyabr 1993-cü il tarixindən qüvvəyə mindi (13). Maastrixt müqaviləsi Avropa ölkələrinin maliyyə və siyasi sistemini tənzimləyən prosesin dönüş mərhələsi oldu. Belə ki, bu müqaviləyə görə Avropa

İttifaqının maliyyə- kredit siyasətinə görə məsuliyyət Avropa Mərkəzi Banklar sistemi üzərinə qoyulur. Müqavilənin nəticəsi olaraq Avropa valyutası kimi avro pul vahidi bərqərar olur və ittifaqın üç əsas sütunu – iqtisadi və sosial siyasət beynəlxalq münasibətlər və təhlükəsizlik sistemi, ədalət məhkəməsi və daxili işlər təşkil edir.

Amma Avropa İttifaqı və onun bağlı olduğu Maastrixt prosesi təkcə iqtisadi inteqrasiya hadisəsi deyildi və namizədlər qarşısında qoyulan tələblər də yalnız iqtisadi yönlü ola bilməzdi. Bunun bariz nümunəsini biz 1993-cü ildə Avropa İttifaqının Kopenhagendə (Danimarka) keçirilən iclasında qəbul olunmuş və 1995-ci ildə Madriddə (İspaniya) keçirilən iclasda təsdiq edilmiş məşhur "Kopenhagen Meyarları" sənədində görürük. Bu meyarlar geosiyasi xarakter daşıyır və əgər Kopenhagen Meyarları ilə Maastrixt tələblərini cəmləsək, Avropa İttifaqına üzvlüyə qəbul siyasətini 3 istiqamətdə qruplaşdıra bilərik:

1) iqtisadi tələblər
2) siyasi tələblər
3) qanunvericiliklə bağlı tələblər

Qeyd etdiyimiz bütün bu meyarlar ümumi meyarlardır, amma vacib bir meyar da var ki, Maastrixt və Kopenhagen razılaşmasında əks olunmasa da Avropa İtifaqına qəbul üçün əhəmiyyətli amil sayılır və bu da coğrafi meyardır. Doğrudur, 1992-ci il Maastrixt müqaviləsinin 49-cu (əvvəlki oxunuşda 1-ci) maddəsinə görə, istənilən Avropa ölkəsi, əgər ittifaqın prinsiplərinə riayət edirsə, onun üzvü ola bilər(3, s. 47). Amma qeyri Avropa ölkəsinin ittifaqa daxil olmasını qadağan edən hər hansı bir maddə yoxdur. Ona görə də, Avropa İttifaqına üzvlük məsələsi xeyli "açıq" qalır və bəzən ziddiyyətli vəziyyətlər yaradır. Bu, Kiprin Avropa İttifaqına qəbul edilməsi (2004-cü il) zamanı da Türkiyənin namizədliyinin irəli sürülməsi zamanı da, böyük debatlara səbəb olmuşdur.

Bütün bu ziddiyyətli məqamlara baxmayaraq, keçən əsrin 80-ci illərindən Avropa Birliyinin qitədən kənar inteqrasiya siyasəti qeyri Avropa dövlətlərinin, o cümlədən Azərbaycan Respublikasının bu prosesə fəal qatılması, ittifaqa üzvlük haqqı olmasa da, müvafiq layihələrdə iştirakı imkanlarını yaratmışdır. Elə bu siyasət çərçivəsində ittifaqın şərqə inteqrasiyası 90-cı illərin əvvəllərindən geniş vüsət almışdır. Üstəlik bu inteqrasiya qarşılıqlı xarakter daşımışdır: artıq 80-ci illərin ortalarından Polşa və Macarıstan kimi dövlətlər "sosialist səddini" yararaq (1,s.489). Avropa Birliyi ölkələri ilə iqtisadi əlaqələrini genişləndirir, müştərək layihələr həyata keçirməyə başlayır. Avropa Birliyi də qarşılıq göstərərək 1985-ci ildə Avropa Regionlar Assambleyasını yaradır (13), 1988-ci ildə isə Avropa İqtisadi Birliyi ilə sosialist bloku ölkələrini birləşdirən qarşılıqlı İqtisadi Yardım Şurası arasında əməkdaşlıq haqqında Bəyannamə imzalanır (1,s.489).

Lakin baş verən bütün bu hadisələr Avropa Birliyinin Şərqə inteqrasiyası prosesinin problemsiz ötüşdüyü və çox rahat keçdiyi təsəvvürü yaratmamalıdır.Burada iki vacib məqamın üzərində dayanmaq lazımdır. Birincisi – Avropa İttifaqının Şərqə genişlənməsi kompleks tədbirlər planını yəni diplomatiya, ticarət- iqtisadi siyasət, təhlükəsizlik məsələlərini nəzərdə tuturdu. Bu isə bir neçə on illik ərzində həyata keçiriləcək tədbirlər idi. Xüsusilə də təhlükəsizlik məsələsində Avropa İttifaqının üzərində çox ağır vəzifələr dururdu: namizədlərin hər biri ilə ayrı-ayrılıqda işləmək lazım idi. Bu namizədlər, bəzi tədqiqatçıların qeyd etdiyi kimi ,"Avropanın depressiv və hər an partlaya bilən periferiyası" idi (7, s. 180).

Ikincisi- Avropa Ittifaqına üzvlük üçün müraciət edən ölkələrin iqtisadi inkişaf səviyyəsi müxtəlif olub üzv ölkələrin müvafiq göstəricilərindən bir neçə dəfə aşağı idi. Namizəd ölkələrdə Ümumi Milli Məhsulun adambaşına düşən payı Avropanın orta sə-

viyyəsinin cəmi 20-60% ni təşkil edirdi (5, s. 69). Sloveniya və Çexiyada İttifaqa daxil olmaq ərəfəsində bu faiz 50 idi (5, s. 69).

Avropa Birliyi bu iki məqamla bağlı xüsusi tədbirlər planı işləyib hazırladı və həmin plana müvafiq istiqamət götürdü. PHARE və TACİS bu tədbirlər planının əsas layihələri oldu. PHARE proqramı Avropa İttifaqının namizəd ölkələr sırasında birinci yerdə duran Mərkəzi və Şərqi Avropa ölkələri üçün nəzərdə tutulmuşdu. Proqram həmin ölkələrdə iqtisadi islahatları və demokratikyanı dəstəkləmək üçün təmənnasız maddi yardım təqdim edirdi. Texniki dəstəklə yanaşı, bu proqram "Birliyin illərlə toplanmış təcrübəsi"ndən yararlanmağa (7, s. 180), Avropa İttifaqına üzv olmaq üçün zəruri olan şərtləri yaratmaq məqsədilə iqtisadiyyatın yenidən qurulmasına və bazar iqtisadiyyatı islahatlarını tamamlamağa imkan verməli idi. Burada əsas diqqət infrastu-rukturun inkişafını stimullaşdırmağa yönəlmişdi PHARE proqramının büdcəsi 14.5 mlrd. dollar idi

Mərkəzi və Şərqi Avropa ölkələrinin bazar iqtisadiyyatına keçməsini sürətləndirmək məqsədilə 1991-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankı yaradıldı və bu beynəlxalq maliyyə təsisatı birbaşa xarici sərmayələri cəlb edir, ölkədəki kapitalı səfərbərliyə alır, texniki yardım göstərirdi.

Bu illərdə Avropa İttifaqının xüsusi diqqət yetirdiyi ölkələr Şərqi Almaniya və Polşa idi. Berlin divarının yıxılmasından sonra (oktyabr 1990-cı il) iki Almaniyanın birləşdirilməsi təkcə böyük maliyyə vəsaiti deyil, sosial problemlərin həllini də tələb edirdi. Polşaya gəlincə burada əsas çətinlik aqrar sektorun dominant olması, "Şok terapiyası" nəticəsində sosial partlayışların baş verməsi, bürokratik kapitalizmin elementlərinin ortaya çıxması, azad rəqabətin zəif inkişafı ilə bağlı idi.

Bütün bu problemləri göz önünə alan Avropa İttifaqı Mərkəzi və Şərqi Avropa ölkələri içərisindən yeni üzv ola biləcək namizədlər seçməyə başladı. Avropa İttifaqının Şərqə genişlənmə siyasətində böyük qətiyyət göstərməsi 10-11 dekabr 1999-cu ildə Helsinkidə keçirilən sammitin qərarlarında da öz əksini tapdı. R. Prodenin rəhbərliyi altında Avropa İttifaqı Komissiyası Şərqə genişlənməni prioritet məqsəd kimi elan etdi və bununla əlaqədar 13 dövlətin (Polşa, Çexiya, Macarıstan, Bolqarvstan, Malta, Kipr və Türkiyə) namizəd statusu alması haqqında proqram təsdiqləndi (13; 7, s. 180). Beləliklə, Avropa İttifaqının genişmiqyaslı inteqrasiya prosesinə start verildi. Nəzərdə tutulmuş PHARE proqramına görə 2008-ci ilin sonunadək Mərkəzi və Şərqi Avropa ölkələrinin böyük bir qismi Kopenhagen meyarlarına müvafiq infrasturuktura malik olmalı idilər. PHARE proqramı qarşılaşdığı bütün çətinliklərə baxmayaraq, çox işlək idi və elə bunun sayəsində artıq 1 may 2004-cü il tarixdə Çexiya, Polşa, Macarıstan, Sloveniya, Slovakiya, Litva, Latviya və Estoniya, həmçinin Aralıq dənizi Bölgəsinin 2 dövləti – Malta və Kipr (adanın yunan hisəsi) Avropa İttifaqının bərabərhüquqlu üzvü oldular. Əslində bu Avropa İttifaqının təkcə Şərqə inteqrasiyası deyil, həm də ən böyük genişlənməsi idi. Qeyd etdiyimiz genişlənmə ilə eyni vaxtda Avropa İttifaqı özünün məşhur TACİS proqramını da həyata keçirirdi. Proqram keçmiş sovet respublikalarına (dəqiq desək, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrə) təmənnasız şəkildə yardım etməklə, bazar iqtisadiyyatının və demokratiyanın inkişaf etdirilməsinə imkan yaradılmasını nəzərdə tuturdu.Proqram ilk dəfə hələ 1990-cı ilin dekabrında Avropa İqtisadi Birliyinin Romada keçirilən iclasında müzakirə olunmuşdu (13; 8; 5, s. 65), sovet rəhbərliyinin islahatçı addımlarını dəstəkləmək qərara alınmışdı. 1991-ci ildə Avropa Birliyi tərəfindən sovet respublikalarında bazar iqtisadiyyatı ilə bağlı islahatlara yardım etmək prinsipləri təsdiqləndi; Avropa Komissiyası isə proqramın həyata keçirilməsinə cavabdeh orqan seçildi (1, s. 494). 1992-ci ildə Baaltikyanı ölkələr Mərkəzi və Şərqi Avropa üçün nəzərdə tutulmuş PHARE proqramına qoşuldular (bax: yuxarı), 1993-cü

ildə TACİS proqramına isə Monqolustan qatıldı. Proqramın büdcəsi 5,6 mlrd. dollar idi (13; 8).

İstər PHARE, istərsə də TACİS və onları müşayət edən iri miqyaslı layihələr Avropa İttifaqının Şərqə genişlənməsinin sadəcə coğrafi məsələ olmadığını, daha önəmli amillərlə geosiyasi amillərə söykəndiyini göstərirdi. Ona görə də Avropa İttifaqının bu dəfə ki genişlənməsi beynəlxalq aləmdə bir mənalı qarşılanmadı. Xüsusilə ABŞ və Rusiya kimi iri dövlətlər baş verənlərə müşahidəçi kimi yox, "böyük oyun"un iştirakçıları kimi reaksiya verməyə başladılar. Xüsusilə Baltikyanı respublikalara istər Moskvanın, istər NATO-nun faktiki təzyiqləri Avropa İttifaqının cavab reaksiyasına səbəb oldu. Təsadüfi deyil ki, Avropa Komissiyasının sədri R. Prodi Riqada etdiyi bəyanatında (10 fevral 2000-ci il) "Avropa İttifaqının hər hansı bir üzvünə qarşı hücum və ya təcavüz Avropa İttifaqının özünə qarşı çevrilmiş hesab olunacaq" söyləməsi vəziyyətin həqiqətən ciddi olmasından xəbər verirdi (12).Üstəlik bu xarakterdə bəyanat Avropa İttifaqının iqtisadi təşkilatdan siyasi, siyasi təşkilatdan isə tədricən hərbi birliyə keçəcəyi ehtimalını artırırdı. Şübhəsiz, nə ABŞ nə Rusiya bu "transformasiya"nı həzm edə bilmirdi.

Avropa İttifaqının Şərqə genişlənməsini izləyərkən, daha bir vacib məsələ üzərində də dayanmalıyıq bu da ittifaqın yeni üzvlərinin iqtisadiyyatının sonrakı inkişaf perspektivləridir. Bununla bağlı artıq 1990-cı illərin sonlarında bəzi tədqiqatçılar bədbin proqnozlar verməyə meylli olub, Mərkəzi və Şərqi Avropa ölkələrinin Avropa İttifaqının xammal mənbəyinə çevriləcəyini, iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətlərin güclülər tərəfindən "boğulacağını" söyləməyə başlamışdılar (bax: 4, s. 91; 9, s. 2).

Amma Mərkəzi və Şərqi Avropa ölkələrinin "periferiya olduğu" tezisi fikrimizcə, Avropa İttifaqı məsələsində doğru səslənmir. Bu ölkələrin uzun müddət QİYŞ-in "xammal periferiyası" olması, həqiqətən faktdır. Amma məhz belə bu səbəbdən, Avropa İttifaqı onları üzv qəbul etməzdən əvvəl böyük bir hazırlıq mərhələsi keçirmiş və biz bunu məqalənin əvvəlində PHARE və TACİS layihələri nümunəsində izlədik. 1999-cu il Helsinki sammiti isə Şərqə genişlənmə siyasətinin çox ehtiyatla, ölçülüb biçilmiş şəkildə həyata keçirildiyinin sübutu oldu. Bu, təkcə Avropa İttifaqının yeni üzv ölkələrinin infrasturukturunun qayğısına qalması deyil, həm də ən vacibi öz gələcək inkişafı üçün narahat olması ilə bağlıdır. QİYŞ-dən fərqli olaraq, Avropa İttifaqına iqtisadi inkişaf səviyyəsi bir-birindən çox fərqlənən ölkələrin üzv olması əlverişli deyil. Çünki bu halda İttifaqın daxilində yarım əsr mövcud olmuş sistem dağılar və balans pozular. Görkəmli tədqiqatçı L. Podkaminerin də söylədiyi kimi, "Avropa İttifaqının xeyrinə ümumi balansı saxlamaq üçün" başqa yol yoxdur (11, s. 3).

"Ümumavropa Evi" Avropanın iqtisadi inteqrasiyası yolu ilə başlayır, ümumi bazar hesabına Avropa siyasi birləşməyə doğru gedir. Bu inteqrasiya böyük bir zaman, inad və səbr tələb etmişdir: bütün çətinliklərə baxmayaraq, Avropa Birliyi öz prinsiplərinə sadiq qalmışdır və Şərqə inteqrasiya siyasətində də hüquqi vətəndaş cəmiyyəti, siyasi və iqtisadi ittifaq prinsiplərini əsas götürmüşdür.

### ƏDƏBIYYAT

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti -Bakı: "Azərbaycan" 2005. -752 s

2. Давыдова М. Министр открыл фортычку в Европу// Независимая газета, 1999 2 сентября.

3. Европейский Союз Основопологающие акты в редакции Лиссабонского договора с коментариями.- Москва: Инфра-М. 2008. -704 с.

4. Лунев С.И. Вызовы безопасности южных границ России. – Москва: Юридический мир, 1999- 198 с.

5. Маастрихтский процесс: реакция на новые вызовы// Мировая эканомика и международные отнашения, 1993, №9. с. 64-77.
6.Россия и основные институты безопасности в Европе: вступая в XXI век/ Под ред. Д. Тренина Москва: 2000.-279с.
7.Berend I.T. The Further Enlargement of the European Union in a Historical Perspective// European Resiew, 1999, may, vol.7, №2.-p. 180-189.
8. Europe Opens its Doors //The Financial Times. 1999, 13 December.
9.Four East Europe States Worn Russia on Chechnya// The New York Times, 1990, 3 December.
10.How Secure Are The Baltic States? International Conference. December 5, 1998 // Stocholm School of Economics Conference Proceedings.- Riga, 1999, 390p.
11.Podkaminer l. EU Membership for the Transition Countries: A Moving Target? // The Vienna instute Monthly Report, 1999, January.
12.http:// www. Stratfor.com -11 February 2000.
13.http:// europa.eu

**ЛЕЙЛА ВАГИФ ГЫЗЫ**

## К ПОЛИТИКЕ РАСШИРЕНИЯ ЕВРОПЕЙСКОГО СОЮЗА НА ВОСТОК
## ( 90-е гг. XX века)

В середине 80-х годов прошлого века Европейское Сообщество вступило в новый этап своего развития: началось широкомасштабное расширение сообщества, именуемое маастрихтским процессом.

Кроме экономических факторов, связанных с собственными потребностями Европы в более высокой степени интеграции, важнейшая роль в развитии маастрихтского процесса принадлежала кардинальным геонолитическим изменениям, которые произошли на рубеже 1990-х гг. В странах соцалистического блока.

В результате интеграционных процесов, в 2004 годы новыми членами Европейского Союза стали 10 государств Центральной и Восточной Европы, 2 государство Средиземноморского региона. В 2007 году Болгария и Румыния также стали частью объединенной Европы. Благодаря этим изменениям Европа через общий рынок идет к политическому объединению.

**LEYLA VAGIF QIZI**
***Post graduate student of BDU***

## ABOUT POLITICAL INCREASE OF EUROPEAN UNION TO THE EAST
## (90 year XX century)

In the mid of 80 years of the last XX century European Community entered to the new phase of its own development: there was beginning the wide ranging which named as Maastrich process. Except of economical factors, which concerned with European requirements to the high stage integration of maastrich process belonged itself cardinal, geo-political changes of the 90 year in the countries of the social blocks.

Results of integration process, in 2004 year the new memberships of European Union became 10 states of Central and Eastern Europe, 2 states of Mediterranean region. Bulgaria and Romania also became the memberships of European Union in 2007 year. Owing to the facts of changing Europe through CM is going to political union.

***Rəyçilər: t.e.n.A.İ.Musayev, t.e.d.L.Həsənova.***

***BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının 02 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***